# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA İNSAN-TƏBİƏT MÜNASİBƏTLƏRİ VƏTƏNƏ SEVGİ KONTEKSTİNDƏ

**Asif Hacıyev (Şirvanelli)**

Azərbaycan Respublikası Təhsil İnstitutunun böyük elmi məsləhətçisi,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
a.haciyev@arti.edu.az

İnsan təbiətin bir parçasıdır. Onun yaradılışı, keçdiyi təkamül yolu həmişə təbiətlə bağlı olmuş və bu gün də canlı bir varlıq kimi gələcək taleyi təbiət hadisələrinin hansı axara düşməsindən asılıdır. Son dövrlərdə xüsusi aktuallıq qazanmış iqlim dəyişikliyi, qlobal istiləşmə problemləri, gözlənilməz təbii fəlakətlər insan-təbiət münasibətlərinə yeni baxış mövqeyindən yanaşılmasını ortaya qoydu. Sanki bəşəriyyət belə bir sadə sual qarşısında qalıb: İnsan təbiətə münasibətinimi, yoxsa ona həyat verən təbiətimi dəyişməlidir? Mövcud gerçəklik sübut edir ki, təbiətə yaradıcı münasibət onun dağıdıcı qüvvəsinin qarşısını alırsa, təbiətin özünə dağıdıcı münasibət bəşəriyyətin sonunu yaxınlaşdırır. Odur ki təbiətə qayğı, ətraf mühiti mühafizə müasir dünyamızın ən önəmli məsələlərindən biri kimi bütün xalqları, sivil dövlətləri düşündürür, onları insanlığın gələcəyi naminə vahid istiqamətdə fəaliyyət göstərməyə səfərbər edir.

Araşdırmalar göstərir ki, təbiət hadisələri, onun gözəllikləri ta qədim zamanlardan sənət adamlarının, o cümlədən söz ustalarının ilham mənbəyi olmuş, bədii sözün ecazkar qüdrətiylə vəsf edilərək könülləri oxşamış, ruhları təzələmişdir. Bu, Azərbaycan şifahi ədəbiyyatı üçün də səciyyəvi hal olub, onun əksər janrlarında qabarıq şəkildə ifadəsini tapmışdır. Uca dağların əzəməti, nəhəng dənizlərin dərinliyi, coşqun çayların gur səsi, aylı, ulduzlu göylərin ənginliyi – bir sözlə, səhərlər gözünü açıb gördüyü, gündüzlər qoynunda çalışdığı, gecələr baş qoyub yatdığı bütün təbiət mənzərələri insan üçün bənzərsiz zövq qaynağı olmuşdur. Hətta məhəbbət mövzusunda yazılmış əsərlərdə belə təbiət gözəllikləri bədii təsvir və ifadə vasitələri şəklinə salınaraq işlədilmişdir ki, bu da sevginin gücünü, sevilən gözəlin nə dərəcədə füsunkar olduğunu göstərməyə xidmət etmişdir. Bu baxımdan şifahi xalq ədəbiyyatımızın ən möhtəşəm abidəsi − ozanlar ozanı Dədə Qorqudun düzüb-qoşduğu boylar toplusu xüsusi maraq doğurur.

Eposun, demək olar ki, bütün boylarında təbiət ən ülvi hisslərlə canlandırılır, tərənnüm edilir. Bu, təsvir edilən hadisələrin daha ətraflı ifadəsində, ayrı-ayrı obrazların daxili aləminin dinləyiciyə (oxcuya) incəliyi ilə çatdırılmasında, bəzi boyların sonunda verilmiş yumların – xeyir-duaların mətnində aydın müşahidə olunur. Məsələn:

Yarlu qara tağlarıñ yıqılmasun!
Kölgəlicə qaba ağacıñ kəsilməsün!
Qamın aqan görkli suyıñ qurımasun! [4, s. 37]

Dədə Qorqudun oğuz igidlərinə alqış ruhunda səsləndirdiyi bu yum parçasından göründüyü kimi, o, ana yurdun yarğanlı, uçurumlu uca dağlarının yıxılmaması, kölgəli böyük ağaclarının kəsilməməsi, coşqun axan gözəl sularının, çaylarının qurumaması üçün dua edir. Çünki oğuz elinin bilicisi, müdrik el ağsaqqalı gözəl anlayır ki, dağlar, ağaclar, çaylar, sular həyat mənbəyidir, gələcək nəslin xoşbəxt yaşayışı, rifahı vətən torpağını gözəlləşdirən bu yerlərin möcudluğundan, onların yadelli işğalçılardan qorunmasından asılıdır.

Oğuz düşüncəsində torpaq da, su da müqəddəsdir. Məhz buna görə də "Su Haq didarın görmüşdür" ifadəsi ilə suyun ulu Tanrı üzü qədər saf, təmiz olması bildirilir və aşağıdakı soylama misraları ilə mədh edilir:

Çığnam-çığnam qayalardan çıqan su!
Ağac gəmiləri oynadan su!
Həsən ilə Hüseyniñ həsrəti su!
Bağ və bostanıñ zinəti su!
Ayişə ilə Fatiməniñ nigahı su!
Şahbaz atlar içdigi su!
Qızıl dəvələr gəlüb keçdigi su!
Ağ qoyunlar gəlüb çevrəsində yatduğı su! [4, s. 45]

Bundan əlavə, boyların dilində fikrin obrazlı ifadəsi məqsədilə təbiət hadisələri və mənzərələrinə geniş müraciət edilir. Məsələn, Qazan xan oğlu Uruzu Oğuzun qədim yurd yeri sayılan Ortac dağına bənzədərək söyləyir:

Oğul, oğul, ay oğul!
Ortacım oğul!
Qarşu yatan qara tağım yüksəgi oğul! [5, s. 139-140]

Bu misralarda Qazan xan yeganə övladı Uruz bəyin onun üçün Ortac dağı qədər əziz olduğunu dilə gətirir. Deməli, vətən torpağı, konkret məqamda Ortac dağı o qədər ülvidir ki, övlad sevgisi onunla müqayisədə nəzərə çarpdırılır.

Yaxud, boyların birində Dədə Qorqud Qazan xanın üzərinə hücuma keçən düşmən qoşununu təbiət hadisələri ilə müqayisədə belə verir:

Bərü gəlgil, arslanım oğul!

Qara dəñiz kibi yayqanıb gələn kafiriñ ləşkəridür.
Gün kibi şılayub gələn kafiriñ başında aşığıdır.
Ilduz kibi parlayıb gələn kafiriñ cıdasıdır.
Azğun dinlü yağı kafirdir, oğul! [5, s. 131]

Göründüyü kimi, kafir qoşunu dəniz kimi yayxanan dənizə, döyüşçülərin başındakı dəbilqənin işıltısı gün işığına, əllərindəki nizənin parıltısı isə ulduz axınına bənzədilir.

Ümumiyyətlə, qədim türklərin qam-şaman görüşlərindən qaynaqlanan bu cür təşbehlər – bənzətmələr insan və təbiət arasındakı harmoniyaya əsaslanır. Kökündə insan və təbiətin durduğu bu əski görüşlər [1, s. 11] ozan sənətinin davamçısı olan aşıq yaradıcılığında daha zəngin boyalarla əksini tapır. Dirili Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım kimi el şairlərinin, Ağ Aşıq, Aşıq Alı kimi ustad aşıqların yaradıcı potensialı ilə rəngarəngləşib yeni çalarlar qazanan bu qarşılıqlı əlaqə Aşıq Ələsgər yaradıcılığında zirvə nöqtəsinə yüksəlmiş olur. Ustad aşıq təbiətə yalnız gözəllik mənbəyi kimi deyil, vətənə sevgisinin ifadəsi kimi yanaşır. Görkəmli folklorşünas P.Əfəndiyev bunu incəliyi ilə duyaraq belə ümumiləşdirir: “Aşıq Ələsgər hər şeydən əvvəl təbiət vurğunu, vətən vurğunudur” [7 , s. 550]. Deməli, vətən təbiətinə vurğunluq elə vətənə vurğunluqdur. Bu sevgi ustad sənətkarın ayağı dəydiyi, görüb zövq aldığı, fərəhləndiyi, qürur duyduğu bütün təbiət mənzərələrinə: dağlara, yaylaqlara, çeşmə və bulaqlara həsr olunmuş qoşma, gəraylı, müxəmməs və təcnislərində bənzəri olmayan elə ifadələrlə tərənnüm edilmişdir ki, sonrakı nəsil aşıqları, hətta böyük Səməd Vurğun da daxil olmaqla müasir şairlərimiz üçün bənzərsiz bir sənət nümunəsinə, klassik mahiyyət daşıyan örnəyə çevrilmişdir. Bir neçə nümunəni nəzərdən keçirək.

Novruzda bahara deyərlər “bəli”,
Gah kamala yetər, gah olar dəli.
Gün vuranda güneylərdən sel gəli,
Qüzey istər, zimistana “can” desin.

Yazın bir ayında xoş keçsə illər,
Zoğ verib rişədən açılar güllər.
Qışın zəmhəririn çəkən bülbüllər
Şeyda olsun, gülüstana “can” desin.

Kükrər dağlar, bir-birindən deyini,
Seçmək olmaz gədasını, bəyini.
Fərvərdində səbzə libas geyini,

Göydən yağan ağ neysana "can" desin.

Aranda qalanlar meyl eylər bağa,
İsti vurar, bürkü dolar otağa.
Bəzənər gözəllər, çıxar yaylağa,
Mənzilgahlar ol mehmana "can" desin.

Yaylaq müntəzirdi, yolların gözlər,
Boyun əyər bənövşələr, nərgizlər.
Çeşməyə yetəndə gəlinlər, qızlar,
Göllərdə çalxanan sona "can" desin. [3, s. 32-33]

Elat camaatının aran və yaylaq həyatını təsvir dən "Can" desin" rədifli qoşmadan gətirilmiş bu bəndlərdə xalqımızın təibətlə sıx bağlı özünəməxsus məişəti elə təsvir edilmişdir ki, sanki bu həyati mənzərələr rəssam fırçası, yaxud kino operatorunun çəkilişi ilə canlandırılmışdır.

Ustad sənətkarın peyzaj lirikasında "Dağlar" rədifli qoşmaları xüsusi yer tutur. Bunların birində ilin hər fəslində bir rəng alan, dondan-dona girərək göz oxşayan əzəmətli dağların gözəlliyi el-oba, o cümlədən aşığın özü üçün nə dərəcədə əvəzsiz olduğu dilə gətirilir:

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, ləlzar olur,
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Yazın bir ayıdı çox yaxşı çağın;
Kəsilməz çeşməndən gözəl yığnağın.
Axtarma motalın, yağın, qaymağın...
Zənbur çiçəyindən bal alı, dağlar!

Yayın əvvəlində dönərsən xana,
Son ayda bənzərsən yetkin bostana.
Payızın zəmhəri qoyur virana,

Dağıdır üstündən calalı, dağlar!

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı.
Ələsgər Məcnun tək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar! [2, s. 85-36]

Məhz buna görə də folklorşünas alim H.İsmayılov şairin dağlara olan sevgisini aşığın həyat tərzi, keçirdiyi ömür yolu ilə əlaqələndirərək yazır:

“Sənətkar dağları sözün həqiqi anlamında bir ana, qayğıkeş, cəfakeş, dərdə yanan, köməyə yetən ulu varlıq kimi təsvir etmişdir; xəstələr dağın qarı ilə şəfa tapır, suyundan içən ölməzlik qazanır, dağlar öz sevgisi, qayğısı ilə insanın dərd-sərini çəkib aparır” [6, s. 75].

Aşıq vətən dağlarını yalnız ümumi şəkildə tərənnüm etmir, həm də konkret olaraq adlarını çəkməklə vəsf edir. Belə ki, “Dağlar” rədifli ikinci qoşmada xalqımızın əsrlər boyu qoynunda yuva qurduğu, həyat sürdüyü Sarı Nər, Qısır Murğuz, Şah dağı, Kəpəz, Murov, Qonur, Həsənnənə, Həsənbaba kimi dağları yada salınır:

Sarı Nərdən top-tüfəngin atılı,
Qısır Murğuz Şah dağına çatılı.
Bir əmliyin bir tümənə satılı,
Xəzəl olu yenə pulların, dağlar?!

Kəpəz, Murov, Qonur – gör neçə dağ var...
Üstünə nur yağsın, ay dəli Qoşqar!
Yayın orta ayında yağdırırsan qar,
Səf çəkib üstündə salların, dağlar!

Həsənnənə, Həsənbaba qoşadı,
Xaçbulaq yaylağı xoş tamaşadı,
Arsız aşıq elsiz niyə yaşadı,
Ölsün Ələsgər tək qulların dağlar [2, s. 88]

Bu nümunələrdən belə bir nəticə hasil olur ki, aşıq üçün dağlarsız yaşamaq ölümə bərabərdir. Vətən torpağını qarış-qarış gəzib el şənliklərində, toy-düyündə iştirak edən ustadın digər əsərlərində də bu ruhu görürük:

Yayda yaylağımdı, qışda oylağım,
Yazda seyrangahım bu dağlar mənim.

Köçürüb ellərin payız ayları,
Gözüm görüb, könlüm budu ağlar mənim. [2, s. 80]

Həmçinin "Şah dağı" rədifli müxəmməsində bəzi bəndlərə diqqət yetirək:

Aləmdə dastan olub
Səddin, sorağın, Şah dağı!
Açılıb nərgiz, bənövşən,
Əcəbdi çağın, Şah dağı!
Abi-kövsər kimi axır
Çeşmən, bulağın, Şah dağı!
Heyif ola, bu çeşmədə
Yoxdu bir sağın, Şah dağı!
Müxənnət yaylar köysündə,
Pozar damağın, Şah dağı!

Süsən, sünbül, gül, ərğəvan
Köysündə laləzar verib;
Alan, satan gözəllərdi,
Nə rəvac bazar verib;
Damənin çəhar fəsildi,
Hər meyvə bitib, bar verib;
Xudam səni çox bəyənib,
Bir belə ixtiyar verib;
Dalın dənizə söykənib,
Kürdü ayağın, Şah dağı!

Mən gəzmişəm Qafqazyanı,
Haqq səni bir xəlq eləyib;
Ağrı dağı padişahdı,
Səni vəzir xəlq eləyib;
Çiçəklərin kimyədi,
Daşını dürr xəlq eləyib;
Boyun minadan çəkilib,
Sərində pir xəlq eləyib;
Murov, Muşov, Murğuz, Kəpəz
Olmaz yamağın, Şah dağı! [3, s. 152-153]

Aşığın "Yaylaq" rədifli gəraylısında da eyni yanaşma ifadə olunmuşdur:

Gözəllər seyrəngahısan,
Görüm səni var ol, yaylaq!
Açılsın gülün, nərgizin,
Təzə murguzar ol, yaylaq! [3, s. 161]

Vətən təbiətinə vurğunluq, onun əsrarəngiz gözəlliyinə heyranlıq yalnız dağların, yaylaq və bulaqların vəsfi ilə yekunlaşmır, həm də bu ölçüyə gəlməz saf sevgi, heyrət doğuran sədaqət el qızlarına həsr olunmuş gözəlləmələrdə bədii təsvir və ifadə vasitəsinə çevrilir. Gözəlin istər xarici görkəmi: boy-buxunu, yerişi, duruşu, istərsə də daxili gözəlliyi − əxlaqı təbiət mənzərələrinə bənzədilərək tərif edilir. Məsələn:

Sərv kimi sığal verib anası,
Guşunda güşvara, qızıl tanası.
Bağçalar bülbülü, göllər sonası,
Dağların ceyranı, maralı Xurşid. [3, s. 54-55]

Qüdrətli söz ustadı əksər gözəlləmələrində vəsf etdiyi el qızlarının, gəlinlərinin təsvirində ağ, qara (siyah), ala, qırmızı, sarı, yaşıl kimi müxtəlif rəng adlarından yerli-yerində istifadə edir:

Dodağın qönçədi, dişlərin sədəf,
Qaşların qüdrətdən qara, Bəyistan!
Gəl elə süzdürmə ala gözləri,
Vurma ürəyimə yara, Bəyistan! [3, s. 29]

Yanağı qırmızı, irəngi ağdı,
Çırağban eyləyib ağı qırmızı.
Ala gözlərinə gözüm sataşdı,
Əridi ürəyimin yağı qırmızı. [3, s. 61]

Cilvələnib, nə qarşımda durubsan,
Canım sana qurban, ay sarı köynək!
Mələksən, çıxıbsan cənnət bağından,
Heç kim olmaz sana tay, sarı köynək! [3, s. 75]

Addadı zimistan, gəldi nobahar,
Şamamanın tağı yaşıldı, yaşıl.
Bəzənib nazənin, al-əlvan geyib,
Eyvanı, otağı yaşıldı, yaşıl. [3, s. 83]

Uzun və mənalı yaradıcılıq yolu keçmiş el sənətkarının ədəbi irsinin çüzi bir hissəsini əks etdirən bu nümunələr bir daha sübut edir ki, vətən təbiətinə vurğunluq elə, obaya mənəvi bağlılıqdan irəli gəlir. Bu sevgi dağlar qədər uca, bulaqlar qədər saf, yaylaqlar qədər geniş, göy qurşağı qədər əlvan çalardadır.

Yekun olaraq belə bir fakta diqqəti yönəltmək istərdik ki, klassik və müasir söz sənətkarlarının yaradıcılığını ümumtəhsil məktəblərində tədris edərkən şagirdlərdə vətənpərvərlik ruhu formalaşdırmaq üçün, ilk növbədə, vətən təbiətinə, onun hər bir guşəsinə qayğı və sevgi hissi aşılanmalıdır. Təbiəti qorumaq vətəni qorumağın ən vacib komponentidir və yetişməkdə olan gənc nəsil dövlətimizin son dövlərdə bu istiqamətdə apardığı işlərə ruhən qoşulmalı, əməli fəaliyyətində həyata keçirməlidir.

Ədəbiyyat


1. Allahmanlı M. Şaman, ozan və aşıq. Bakı: Ağrıdağ, 2002, 332 s.
2. Aşıq Ələsgər. Birinci kitab. Bakı: Elm, 1973, 326 s.
3. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
4. Hacıyev (Şirvanelli) A.X. "Dədə Qorqud kitabı"nın şərhli oxunuşu II kitab (1 və 2-ci boylar üzrə). Bakı: Elm və təhsil, 2019, 168 s.
5. Hacıyev (Şirvanelli) A.X. "Dədə Qorqud kitabı"nın şərhli oxunuşu III kitab (3–6-ci boylar üzrə). Bakı: Elm və təhsil, 2022, 288 s.
6. İsmayılov H. Göyçə aşıqları və el şairləri. II c. Bakı: Nurlan, 2010, 594 s.
7. Ozan-aşıq yaradıcılığının inkişaf yolları. Bakı: Çaşıoğlu, 201